50 (1356) 19-25 dekabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## ÖLKƏMİZDƏ MÜXTƏLİF XALQLARIN NÜMAYƏNDƏLƏRİ DAİM SÜLH, ƏMİN-AMANLIQ VƏ HARMONİYA ŞƏRAİTİNDƏ YAŞAYIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallageri qəbul edib.

Arxiyepiskop Paul Riçard Qallager Roma Papası Fransiskin salamlarını dövlətimizin başçısına çatdırıb.

Roma Papasının sonuncu dəfə 2016-cı ildə Azərbaycana səfər etdiyini deyən dövlətimizin başçısı həmin vaxt və özünün 2020-ci ildə Vatikana səfəri çərçivəsində Roma Papası ilə görüşlərini məmnunluqla xatırlayıb, Roma Papasını ölkəmizə səfərə dəvət edib.

Səfərinin əsas məqsədinin Azərbaycanda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdis edilməsi olduğunu deyən qonaq bu kilsənin inşası üçün ərazinin ayrılmasına və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib, bunun tərəfdaşlığın nümunəsi olduğunu və ölkəmizdəki katolik icması tərəfindən çox böyük rəğbətlə qarşılandığını vurğulayıb.

Dövlətimizin başçısı arxiyepiskop Paul Riçard Qallagerin ölkəmizə səfərinin və kilsənin tikiləcəyi ərazini təqdis etməsinin Müqəddəs Taxt-Tacın Azərbaycanın katolik icması ilə əlaqələrə verdiyi önəmi nümayiş etdirdiyini deyib. Prezident İlham Əliyev yeni tikiləcək kilsənin əlaqələrimizin yaxşı rəmzi olacağını vurğulayıb.

Görüşdə Yaxın Şərqdəki vəziyyətə toxunulub. Prezident İlham Əliyev Əsəd rejiminin çökməsindən sonra qardaş Türkiyə ilə məsləhətləşərək Suriya xalqının üzləşdiyi humanitar problemlərin həllinə dəstək verməyə hazır olduğunu bir daha qeyd edib.

## MİLLİ MƏCLİSDƏ 2025-Cİ İLİN DÖVLƏT BÜDCƏSİ VƏ BÜDCƏ ZƏRFİNƏ DAXİL OLAN QANUN LAYİHƏLƏRİ QƏBUL EDİLİB

Dekabrın 16-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.



Parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasın gündəliyinə 14 məsələ daxil edilib və 10 məsələ 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Sonra parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib.

Azər Əmiraslanov diqqətə çatdırıb ki, dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri üzrə 40 milyon manat məbləğində artım istiqamətində dəyişiklik edilir. Qeyd olunub ki, bəzi istiqamətlər üzrə xərclər ümumilikdə 229,8 milyon manat azaldılır, digər istiqamətlər üzrə həmin məbləğ qədər artırılır. Beləliklə, dövlət büdcəsinin gəlirləri növbəti il üçün 38 milyard 356 milyon manat, xərcləri isə 41 milyard 407 milyon 600 min manat nəzərdə tutulur.

Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, layihəyə əsasən, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2025-ci il üçün ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilir.

Sonra Musa Quliyev "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, 2025-ci il üçün ehtiyac meyarının həddinin 285 manat məbləğində müəyyən edildiyini diqqətə çatdırıb.

Müzakirələrdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Komitə sədri Azər Əmiraslanov Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda, "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinə dair məlumat verib. Qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinin mahiyyəti barədə danışıb. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Azər Əmiraslanov, həmçinin "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Beləliklə, büdcə zərfinə daxil olan bütün qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

## AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ 22 MİLYARD MANATA YAXIN VƏSAİT AYRILIB

"Prezident İlham Əliyev və Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri uğurla davam edir".

Bunu Baş nazir Əli Əsədov Milli Məclisdə "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi zamanı bildirib.



*"2020-ci ildən başlayaraq 2025-ci il də daxil olmaqla dövlət büdcəsindən bərpa-quruculuq işlərinə toplam 22 milyard manata yaxın vəsait (o cümlədən, 2025-ci ildə 4 milyard manat) ayrılıb. Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə köçürülməsi prosesi uğurla həyata keçirilir. Bugünədək 2417 ailə - 9306 nəfər azad olunmuş ərazilərə köçürülüb"*, - deyə Baş nazir qeyd edib.

## 2025-ci il üçün dövlət büdcəsinin gəlir və xərcləri artırıldı və qəbul edildi

2025-ci il üçün dövlət büdcəsinin xərcləri 41 milyard 407 milyon 600 min manat təşkil edəcək.

2025-ci ildə dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat olacaq.

Bu, Milli Məclisdə müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində əksini tapıb.

Gələn il dövlət büdcəsinin xərcləri isə 41 milyard 407 milyon 600 min manat olacaq.

Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.

Təklif olunan dəyişikliklər qəbul edildiyi təqdirdə 2025-ci il üçün həm dövlət, həm də icmal büdcələrinin gəlir və xərcləri bərabər olaraq 40 milyon manat artır, yəni dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri 41 milyard 407 milyon 600 min manat, icmal büdcənin gəlirləri 43 milyard 950 milyon 500 min manat, xərcləri 47 milyard 629 milyon 400 min manat təşkil edəcəkdir.



Bunu dekabrın 16-da 2025-ci il dövlət büdcəsi layihəsinin müzakirəsinə həsr olunmuş Milli Məclisin plenar iclasında çıxış edən maliyyə naziri Samir Şərifov bildirib.

Nazir bəzi zəruri istiqamətlər üzrə xərclərin artırılması ilə bağlı, o cümlədən müzakirələr zamanı millət vəkillərinin irəli sürdüyü təkliflər də nəzərə alınmaqla təqdim olunan büdcə layihəsinə aşağıdakı dəyişikliklərin edilməsinin məqsədəuyğun hesab olunduğunu bildirib və millət vəkillərini dəqiqləşdirilmiş dövlət və icmal büdcələrin layihələrini və büdcə zərfinə daxil edilmiş digər qanunvericilik aktlarını qəbul etməyə və onlara səs verməyə çağırıb.

## DSMF-nin 2025-ci il büdcəsi haqqında qanunu qəbul edildi



Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsinin gəlir və xərcləri 7 milyard 676 milyon 420 min manat məbləğində proqnozlaşdırılır.

Bu, Milli Məclisin dekabrın 16-da keçirilən iclasında müzakirəyə çıxarılan "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihəsində əksini tapıb.

Bu, 2024-cü illə müqayisədə 726 milyon 560 min manat, yaxud 10,45 faizdən çoxdur.

Layihəyə əsasən, gələn il DSMF-nin xərclərinin maliyyələşmə mənbəyi aşağıdakılardır:

-Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsinin gəlirləri - 7 milyard 617 milyon 400 min manat;

-Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il yanvarın 1-nə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən - 59 milyon 20 min manat.

Fondun 2025-ci il üçün məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərinin həcminin 5997,40 mln. manat və ya gəlirlərin 78,73 faizi qədər təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2024-cü ilin təsdiqlənmiş proqnoz məbləği göstəricisi ilə müqayisədə 519,26 milyon manat və ya 9,48 faiz çoxdur.

Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.

## Müdafiə və milli təhlükəsizlik xərcləri 8 milyard 555 milyon manata çatdırılır

"Əlavə gəlir potensialının səfərbər edilməsi yolu ilə bir sıra publik hüquqi şəxslərə xərcləri dövlət büdcəsi hesabına deyil, daha çox öz gəlirləri hesabına təmin etmək tövsiyə edilib".



Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisdə "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi zamanı bildirib. Nazir deyib ki, bunun nəticəsi olaraq, təqribən 159 milyon manat vəsaitin bu təyinat üzrə sərbəstləşdirilməsi və tam həcmdə ölkəmizin müdafiə və milli təhlükəsizliyinin daha da gücləndirilməsi ilə bağlı tədbirlərinin əlavə maliyyə təminatına yönəldilməsi nəzərdə tutulub: *"Bununla müdafiə və milli təhlükəsizlik xərclərinin dövlət büdcəsindəki ümumi məbləği 8 milyard 555 milyon manata çatdırılır"*.

# “Naxçıvanda aparılan auditlər bəzi sahələr üzrə irəliləyişlərin olduğunu göstərir”



“Müvafiq tapşırıqlardan irəli gələn məsələlər Naxçıvan Muxtar Respublikasının inkişafı üçün hazırlanan strateji sənədlərdə öz əksini tapıb”.

Bu sözləri dekabrın 18-də Naxçıvanda keçirilən Maliyyə Forumunda çıxışı zamanı Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib.

Onun sözlərinə görə, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda "Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi" bəndi nəzərdə tutulub: *“Ötən il maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsinə dair Naxçıvanda keçirilən tədbirdəki çıxışımda dövlət sektorunda maliyyə şəffaflığının və hesabatlılığının minimal tələblərini səsləndirmişdim. Həmin tədbirdən 1 ildən bir qədər çox vaxt keçib. Bu dövr ərzində aparılan auditlər və təhlillər bəzi sahələr üzrə irəliləyişlərin olduğunu göstərir”.*

# “Son 22 ildə Naxçıvanın büdcəsi 13 dəfədən çox artıb”



“2003-2024-cü illərdə Naxçıvan Muxtar Respublikasının büdcəsi dövlət büdcəsindən ayrılan dotasiya ilə birlikdə 13,2 dəfə və yaxud 498,3 milyon manat artaraq 539,3 milyon manata çatıb”.

Bunu maliyyə nazirinin müavini Azər Bayramov dekabrın 18-də Naxçıvanda keçirilən Maliyyə Forumunda bildirib.

Onun sözlərinə görə, 22 il ərzində muxtar respublikanın təkcə özünün büdcə gəlirləri isə 16,5 dəfə və yaxud 190,5 milyon manat artaraq 202,8 milyon manata yüksəlib.

# “Bu il Naxçıvanda yerli gəlirlərin payı 50%-dən çox olacaq”



“Əgər 2 il bundan əvvəl Naxçıvan Muxtar Respublikasının büdcəsində yerli gəlirlərin payı 20-25% idisə, bu ilin sonunda 50%-dən çox olacaq”.

Bunu Prezidentin Naxçıvandakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli dekabrın 18-də keçirilən Maliyyə Forumunda bildirib.

O, deyib: *“Son 2 ildə muxtar respublikada yeni idarəetmə metodunun üsullarının tətbiqi ilə aparılan islahatlar maliyyə sektorunu da əhatə edib. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq maliyyə intizamının gücləndirilməsi, büdcənin düzgün tərtib və icra edilməsi, yerli gəlirlərin artırılması və dotasiyanın azaldılması istiqamətində ardıcıl işlər aparılır. Naxçıvanda dövlət satınalmalarının qanunvericiliyin tələblərinə uyğun keçirilməsi ilə bağlı da sistemli iş aparılır ki, bu da dövlət vəsaitindən təyinata uyğun - düzgün istifadəni təmin edib”.*

# “Gömrük yığımlarının qeyri-neft gəlirlərində payı 34 faizə yüksəlib”

“Gömrük yığımlarının dövlət büdcəsinin qeyri-neft gəlirlərində payı 34 faizə yüksəlib”.

Bunu Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinov Bakıda keçirilən Gömrük-Biznes Forumu çərçivəsində panel sessiyada bildirib. N.Şirinov qeyd edib ki, büdcənin qeyri-neft gəlirlərinin üçdəbiri gömrük xətti ilə daxil olur. Onun sözlərinə görə, Azərbaycanda ümumi gömrük yığımlarının dövlət büdcəsində payı 18 faiz təşkil edir ki, 10 il əvvəl bu göstərici 10 faizdən az idi.

# Bakı-Tbilisi-Ərzurum kəməri ilə 20 milyard kubmetrdən çox təbii qaz ixrac edilib

Yanvar-noyabr aylarında Azərbaycandakı magistral təbii qaz kəmərləri ilə 36 milyard 319,3 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin eyni aylarına nisbətən 0,8 faiz artım müşahidə olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, on bir ayda qaz nəqlinin 57,2 faizi Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri - CQBK) boru kəməri vasitəsilə həyata keçirilib və bu kəmərlə təbii qaz nəqli 4,31 faiz artaraq 20 milyard 786,7 milyon kubmetr təşkil edib.

# BTC kəməri ilə nəql olunan neftin həcmi açıqlanıb

Yanvar-noyabr aylarında Azərbaycandakı magistral neft kəmərləri ilə nəql olunan neft 2,87 faiz azalaraq 35 milyon 360 min ton təşkil edib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, nəqletmənin 75,9 faizi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) ilə həyata keçirilib və cari ilin yanvar-noyabr ayları ərzində bu kəmərlə neft nəqli 2,9 faiz azalaraq 26 milyon 831,1 min ton olub.

Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 81,8 faizini və ya 21 milyon 940,5 min tonunu Azərbaycanda hasil edilən neft, 18,2 faizini və ya 4890,6 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.

# POS-terminallardan istifadə ilə bağlı yoxlama davam etdirilir

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti POS-terminal quraşdırılması məcburi olan ticarət və iaşə obyektlərində POS-terminalların quraşdırılmaması və nağdsız ödənişlərin qəbulundan imtina hallarının qarşısının alınması məqsədilə vergi nəzarəti tədbirlərini davam etdirir.

Nəzarət tədbirləri nəticəsində ümumilikdə 593 ticarət və iaşə obyektində ödənişlərin sistematik şəkildə POS-terminal deyil, kartdan-karta köçürmə əməliyyatları vasitəsilə həyata keçirilməsinə şərait yaradıldığı aşkarlanıb. Həmin sahibkarlıq subyektləri ilə bağlı protokollar tərtib olunub və maliyyə sanksiyalarının tətbiqi barədə qərarlar qəbul edilib.

Dövlət Vergi Xidməti bir daha bildirir ki, nağdsız vəsaitin qəbulu yalnız POS-terminal vasitəsilə həyata keçirilməli və bu zaman vətəndaşlara POS-terminalın qəbzi ilə yanaşı nəzarət-kassa aparatının çeki də təqdim edilməlidir. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanuna uyğun olaraq POS-terminalların quraşdırılması, “Elektron ticarət haqqında” Qanuna əsasən isə istehlakçılara elektron ödəniş imkanının yaradılması vergi ödəyicilərinin birbaşa vəzifələrinə aiddir.

# Məcburi audit subyektləri rəhbərlərinin nəzərinə!

**Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin və müvafiq nizamnamə tələblərinə uyğun olaraq aşağıda göstərilən məcburi audit subyektləri hər il maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:**

| № | Məcburi audit subyektləri | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən. |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4-cü maddəsində nəzərdə tutulan şərtlərlə 1999-cu il 28 dekabr tarixli 779-IQ |
| 3. | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107.6-cı maddələrində nəzərdə tutulan şərtlərlə 1999-cu il 28 dekabr tarixli 779-IQ |
| 4. | Banklar və digər kredit təşkilatları | “Banklar haqqında” Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələrinə əsasən. |
| 5. | Sığorta təşkilatları və cəmiyyətləri | “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü maddəsinə əsasən |
| 6. | İnvestisiya fondları | “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı və 48-ci maddələrinə əsasən. |
| 7. | Maliyyə-sənaye qrupları | “Maliyyə-sənaye qrupları haqqında” Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ №-li Qanununun 16-cı və 17-ci maddələrinə əsasən. |
| 8. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.3-cü maddəsində nəzərdə tutulan şərtlərlə. |
| 9. | Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.2-ci maddəsinə əsasən |
| 10. | Publik hüquqi şəxslər | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 06 iyul tarixli 173 nömrəli fərmanı ilə təsdiq edilmiş Publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsinin 7.4-cü maddəsinə əsasən. |
| 11. | Siyasi Partiyalar | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsinə əsasən. |
| 12. | Kənd təsərrüfatı kooperativləri | “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli № 270-VQ saylı Qanunun 5.4-cü maddəsinə əsasən. |
| 13. | Bələdiyyələr | “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli № 772-IQ saylı Qanunun 13-cü maddəsinə əsasən. |
| 14. | İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları | “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli № 1284-IVQ saylı Qanunun 61-ci maddəsinə əsasən. |
| 15. | Nizamnamələrində (Əsasnamələrində) auditdən keçmələri ehtiva olunan qurumlar | Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman, Sərəncamlarına və digər sənədlərə əsasən. |

**İzahedici qeydlər:**

- Qanunvericiliyin tələblərinə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan iqtisadi subyektlər, qanunvericilik aktları ilə bilavasitə nəzərdə tutulmuş hallarda və nizamnamələrində (əsasnamələrində) auditdən keçmələri ehtiva olunan qurumlarda həyata keçirilməli olan, habelə Səlahiyyətli Dövlət Orqanları tərəfindən aparılan audit məcburi, digər hallarda isə könüllüdür.
- Yuxarıdakı siyahıda qeyd olunan məcburi audit subyektlərindən başqa digər iqtisadi subyektlər də öz təşəbbüsləri ilə maliyyə hesabatlarının düzgünlüyünü təsdiq etdirmək və digər auditor xidmətlərindən istifadə etmək üçün könüllü olaraq müstəqil (kənar) auditor cəlb edə bilər.
- Auditi aparılan iqtisadi subyektin şəxsi əmlak mənafeyi, onun iqtisadi subyektinin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, iqtisadi subyektin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, həmin iqtisadi subyektdə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə, auditorlara həmin iqtisadi subyektlərdə audit aparmaq qadağandır.
- Yeni dövrün çağırışları nəzərə alınmaqla dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və yaşıl iqtisadiyyat naminə aparılan ölkə iqtisadiyyatının inkişafının müasir mərhələsində müstəqil (kənar) audit maliyyə şəffaflığının əsas təminatçısı kimi, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, maliyyə və vergi intizamının möhkəmləndirilməsində, korrupsiyaya və əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə mühüm rola malik olmaqla yanaşı, auditorlar tərəfindən təqdim olunan auditor hesabatının (auditor rəyinin) iqtisadi subyektlərin maliyyə fəaliyyətində yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti vardır;
- İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz:
- **https://audit.gov.az/Az/page/5 (auditor təşkilatları)**
- **https://audit.gov.az/Az/page/6 (sərbəst auditorlar)**
- Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri dəstək göstərməyə hazırdır.

**Azərbaycan Respublikasının
Auditorlar Palatası**

# Adambaşına düşən gəlir on bir ayda 7 319 manata qalxıb



Azərbaycanda 2024-cü ilin ilk 11 ayında əhalinin hər nəfərinə düşən nominal gəlirlər illik müqayisədə 5.8 faiz artaraq 7 319.4 manat (hər aya ortalama 665 manat) təşkil edib.

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Əhalinin nominal gəlirləri ümumilikdə 74 milyard 670.8 milyon manat olmaqla keçən ilin eyni dövrünü 6.3 faiz üstələyib.

Əhalinin hər nəfərinə düşən nominal gəlirlər ölkədə əldə olunan ümumi gəlirlərin əhalinin sayına bölünməsi ilə hesablanan göstəricidir. Bu göstərici pul ifadəsində olur və vergi və digər xərclər nəzərə alınmadan, ümumi gəliri göstərir.

Ölkədə 1 noyabr 2024-cü il tarixinə 10 milyon 218.5 milyon manat əhali olmaqla ümumilikdə 11 aya 53 milyard 867.7 milyon manat pərakəndə ticarətə xərcləyib.

Ölkədə qida, enerji, geyimdən tutmuş avtomobil xərclərini ölçən istehlak qiymətləri indeksi öncəki ili düz 4.4 faiz üstələyib. Yəni ölkədə manatın alıcılıq qabiliyyəti cəmi 4.4 illik müqayisədə aşağı olub.

Ölkədə ən çox bahalaşan isə ödənişli xidmətlər olub – 6 faiz.

# AÇG-dən ümumi hasilat 600 milyon tona çatıb

Azəri-Çıraq-Günəşli (AÇG) neft yatağının operatoru kimi bp AÇG layihəsindəki tərəfdaşları – "SOCAR", "MOL", "İNPEX", "ExxonMobil", "TPAO", "ITOCHU" və "ONGC Videsh" – adından qürurla bəyan edir ki, yataqdan 600 milyonuncu ton neft hasil edilib.

Qeyd edilib ki, ümumilikdə hasil edilmiş 600 milyon ton neft Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri və Qərb İxrac Boru Kəməri (QİBK) vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Səngəçal terminalından birbaşa dünya bazarlarına nəql edilmişdir.

SOCAR-ın prezidenti Rövşən Nəcəf deyib: **"Azəri-Çıraq-Günəşli yatağından 600 milyon ton neft hasilatına nail olunması Azərbaycanın enerji sektorunun davamlı uğurunu təsdiqləyən əhəmiyyətli nailiyyətdir. Bu əlamətdar hadisə, müasir Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin uzaqgörən rəhbərliyi sayəsində mümkün olmuşdur. Heydər Əliyevin müdrik siyasəti 1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanmasına yol açaraq ölkəmizin enerji müstəqilliyinin və iqtisadi rifahının təməlini qoymuşdur. AÇG-nin 30 illik yubileyini qeyd edərkən, SOCAR bu irsi davam etdirməklə enerji sektorunda yenilik və dayanıqlılığa töhfə verməyə davam edəcək."**

# 2024-cü ilin ən fəal sahibkarları mükafatlandırıldı




2024-cü il ərzində biznesində innovativ və müasir yanaşmalar tətbiq edən, ixracyönümlü məhsul və xidmətlər istehsal edən, aktiv investisiya fəaliyyəti ilə seçilən və məşğulluğun təmin edilməsinə öz töhfəsini verən 15 biznes subyektinə KOBİA tərəfindən "Dayaq" mükafatı təqdim edilib.

Sahibkarların ölkə iqtisadiyyatına verdiyi töhfə nəzərə alınaraq, artıq 3 ildir ki, biznes nümayəndələrinə "Dayaq" mükafatı təqdim edilir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən 2022-ci ildə təsis edilmiş "Dayaq" mükafatının məqsədi biznesində innovativ və müasir yanaşmalar tətbiq edən, ixracyönümlü məhsul və xidmətlər istehsal edən, aktiv investisiya fəaliyyəti ilə seçilən, məşğulluğun təmin edilməsinə öz töhfəsini verən şirkətləri mükafatlandırmaqla onları stimullaşdırmaq, eləcə də sahibkarların qazandıqları uğurları ictimaiyyətin diqqətinə çatdırmaq, biznes düşüncə tərzini təşviq etmək, dövlət və özəl sektor arasında əlaqələri daha da möhkəmləndirməkdir. Rəmzi məna daşıyan "Dayaq" mükafatı həm də dövlətin daim sahibkarların yanında olduğunun göstəricisidir.

2024-cü il üzrə "Dayaq" mükafatının sahibkarlara təqdim edilməsi üçün İqtisadiyyat Nazirliyinin dəstəyi, KOBİA-nın təşkilatçılığı ilə tədbir keçirilib.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev 2024-cü il ərzində ölkəmizdə sosial-iqtisadi sahədə, özəl bölmədə əldə olunmuş uğurlar, sahibkarların məşğulluğun təmin olunmasında rolu, növbəti illərdə iqtisadiyyat və sahibkarlıq sahəsində yeniliklər barədə məlumat veriblər. Milli Məclisin deputatı Nigar Arpadarai, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov isə çıxışlarında sahibkarlıq sahəsində qanunvericilik təşəbbüsləri, KOB-ların dayanıqlı və davamlı iqtisadi inkişafda, yaşıl keçiddə rolu, dövlət-özəl əməkdaşlığı barədə fikirlərini bölüşüblər.

Sonra 2024-cü ildə uğur qazanmış 15 sahibkarlıq subyektinə dövlət qurumlarının rəhbər şəxsləri tərəfindən müxtəlif nominasiyalar üzrə "Dayaq" mükafatları təqdim edilib.

# "Nəqliyyat dəhlizləri Azərbaycanın tranzit imkanlarını artırıb"

"Son 5 ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 2 dəfədən çox artaraq 52 milyard dollara çatıb".

Bunu Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində çıxışı zamanı deyib.

Şahmar Mövsümov qeyd edib ki, gömrük prosedurlarının sadələşdirilməsi, bürokratik maneələrin aradan qaldırılması sayəsində yerli və xarici investorlar üçün daha əlverişli imkanlar yaradılıb. Onun sözlərinə görə, nəqliyyat dəhlizləri Azərbaycanın tranzit imkanlarını artırıb və biznes subyektləri üçün əhəmiyyətli imkanlar yaradıb: *"Xüsusilə Orta Dəhliz vasitəsilə Çindən Avropaya daşınan yüklərin tranzit müddəti 8-10 günə qədər azalıb".*




# "Bu il gömrük qanunvericiliyinin pozulması ilə bağlı 33 mindən çox fakt aşkar edilib"




"Gömrük orqanları tərəfindən ümumilikdə 93 fakt üzrə 378 kq narkotik vasitə, psixotrop maddələr və onların prekursorları aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb".

Bunu Dövlət Gömrük Komitəsi (DGK) sədrinin birinci müavini Bəhruz Quliyev Bakıda keçirilən Gömrük-Biznes Forumu çərçivəsində keçirilən panel sessiyada çıxışı zamanı bildirib. Onun sözlərinə görə, gömrük orqanları iqtisadiyyatın və milli təhlükəsizliyin, əhalinin sağlamlığının, mədəni irsin, ekoloji tarazlığın və beynəlxalq ticarətin qaçaqmalçılığın mənfi təsirlərindən qorunması istiqamətində mühüm rol oynayır. *"Bu il Azərbaycanda gömrük qanunvericiliyinin pozulması ilə bağlı 33 588 fakt aşkar edilib ki, onlardan 1 258-i cinayət xarakterlidir"*, - deyə Bəhruz Quliyev əlavə edib.

# Dövlət büdcəsində 3 milyard manatdan çox artıqlıq yaranıb




Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2024-cü ilin yanvar-noyabr aylarında dövlət büdcəsinə 34 milyard 56,2 milyon manat vəsait daxil olmuşdur.

Bu barədə Dövlət Statistika Komitəsinin aylıq hesabatında bildirilir.

Qeyd edilib ki, büdcədən 31 milyard 38,1 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 3 milyard 18,1 milyon manatlıq profisit (artıqlıq) yaranmışdır.

# "Dövlət büdcəsi ilə bağlı proqnozun yerinə yetirilməsində problem yoxdur"

"Büdcə proqnozunun yerinə yetirilməsində hər hansı bir problem, çətinlik yoxdur. Növbəti ilin də büdcə sənədləri qəbul olunub və biz müəyyən olunmuş tapşırıqları yerinə yetirəcəyik".

Bunu Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində jurnalistlərə açıqlaması zamanı deyib.

*"Gömrük orqanları bu il də büdcə proqnozunun yerinə yetirilməsini təmin edəcək. Bu proqnoz hesablamalara əsaslanır. Ticarət əməliyyatları, xüsusilə idxalın həcmi nəzərdən keçirilir. Daha sonra dəqiq rəqəmlər təsbit olunur. Hesablanan rəqəmlər beynəlxalq praktikaya əsaslanır. Bunun nəticəsində sahibkarlar ödənişləri dövlət büdcəsinə məmnuniyyətlə ödəyirlər. Hər kəs gömrük rüsumlarının və vergilərin ödənilməsinə görə qürur hissi keçirməlidir. Nəticə etibarilə toplanan vergilər hər birimizin həyat səviyyəsinə təsir edir. Belə ki, büdcə vəsaitləri müxtəlif pensiyaların ödənilməsi, quruculuq işləri, infrastruktur layihələrinin icrasına yönəldilir"*, - deyə o qeyd edib.

DGK sədri bildirib ki, gömrük ödənişlərinin hesablanması üçün gömrük dəyəri formalaşmalıdır: *"Bu dəyər vahid metodiki hesablama əsasında həyata keçirilir. gömrük dəyərinin müəyyən edilməsi gömrük işi sayəsində ən önəmli məsələlərdəndir. Bir daha vurğulamaq istəyirəm ki, bu proseslərdə əsas rolu sahibkarlar oynayır".*

# "Gömrük dəyərinin hesablanması beynəlxalq praktikaya əsaslanır"

"Gömrük dəyərinin müəyyən edilməsi gömrük işi sahəsində ən önəmli məsələlərdəndir".

Bunu Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov dekabrın 17-də keçirilən "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, gömrük ödənişlərinin hesablanması üçün gömrük dəyəri formalaşmalıdır: *"Bu dəyər vahid metodiki hesablama əsasında həyata keçirilir. Hesablanan rəqəmlər beynəlxalq praktikaya əsaslanır. Bunun nəticəsində sahibkarlar ödənişləri dövlət büdcəsinə məmnuniyyətlə ödəyir. Bu proseslərdə əsas rolu sahibkarlar oynayır. Toplanan vergilər hər birimizin həyat səviyyəsinə təsir edir. Belə ki, büdcə vəsaitləri müxtəlif pensiyaların ödənilməsi, quruculuq işlərinə, infrastruktur layihələrin icrasına yönəldilir".*

# "Gəlirlərin toplanması istiqamətində elektron bildiriş sistemi hazırlanıb"

"Gömrük rüsumları və vergiləri 2023-cü ilin dövlət büdcəsinin 18 faizini, ÜDM-in 5,2 faizini təşkil edib".

Bunu Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində çıxışı zamanı deyib.

DGK sədri bildirib ki, büdcə daxilolmaları üzrə gömrük gəlirlərində 2023-cü ildə 2022-ci illə müqayisədə 12,4 faiz artım müşahidə olunub. Onun sözlərinə görə, komitə gəlirlərin toplanması istiqamətində elektron bildiriş sistemi və təminat əsasında malların buraxılış mexanizmini hazırlayıb.

*"Gəlirlərin toplanması istiqamətində beynəlxalq standartlara uyğun metodik vəsait, elektron bildiriş sistemi və təminat əsasında malların buraxılış mexanizmi hazırlanıb"*, - deyə o vurğulayıb.




# Gömrük əməliyyatları biznes prosesinin mühüm tərkib hissəni təşkil edir

"Müasir dövrümüzdə gömrük əməliyyatları biznes prosesinin mühüm tərkib hissəni təşkil edir. Ölkəmizdə fəaliyyətdə olan sahibkarların 99,7 faizini KOB subyektlərinin təşkil etdiyini nəzərə alsaq, gömrük əməliyyatı istifadəçiləri olan sahibkarların da mütləq əksəriyyətini KOB-ların təşkil etdiyini söyləmək olar".

Bunu Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin (KOBİA) sədri Orxan Məmmədov "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Dövlət Gömrük Komitəsi ilə əməkdaşlığın həcm və effektivlik baxımından böyük hissəsi xidmət təminatı ilə bağlıdır.

"KOB ev"lərində müxtəlif dövlət və özəl qurumlar, o cümlədən Dövlət Gömrük Komitəsi tərəfindən vahid məkanda xidmətlər təmin olunur.



# "Qarabağda əmək qabiliyyətli vətəndaşların 85 faizi işlə təmin edilib"

"Son 6 ildə əməkhaqqı fondunun 3,2 dəfədən çox artması biznesin inkişafının əsas göstəricilərindəndir".

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, qeyd edilən dövr ərzində Azərbaycanda əmək müqavilələrinin artımının 80 faizi özəl sektorun sayəsində olub.

Nazir bildirib ki, Qarabağda əmək qabiliyyətli vətəndaşların 85 faizi işlə təmin edilib: *"Qalan vətəndaşların məşğulluğunun təmin edilməsi istiqamətində işlər davam etdirilir".*

## "Peşəyönümlü təhsilin inkişafına yardım" İB "Universitetlərin rəqabət qabiliyyəti" mövzusunda tədbir keçirib




Azərbaycan Respublikası "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi"nin verdiyi kiçik qrant hesabına "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyi "Universitetlərin rəqabət qabiliyyəti mövzusunda maarifləndirici dəyirmi masaların təşkili" adlı layihənin icrasını yekunlaşdırdı. Məlumdur ki, bizim universitetlər 20 ildir ki, universitetlərin qlobal reytinqlərində çox zəif nəticələr göstərirlər. Çünki universitetlərimiz qlobal təhsil bazarında rəqabətədavamlı deyil. Bunun bir çox səbəbləri var.

Təcrübə göstərir ki, bizim universitetlər nəinki rəqabətə davamlı deyil, hətta bəzi universitetlərdə "ali təhsil müəssisəsinin rəqabət qabiliyyəti nədir?" sualına birqiymətli cavab verə bilmirlər. Universitetlərimizin beynəlxalq rəqabətqabiliyyəli olmaması səbəbi ilə bizdə oxuyan əcnəbi tələbələrin sayı xeyli azdır. Məsələn, bu il Türkiyə universitetlərində 300 min əcnəbi tələbə təhsil alır. Biz də öz universitetlərimiz haqqında düşünməliyik. Türkiyədə bizim 34 min tələbəmiz təhsil alır. Təxminən bir o qədər də toplam olaraq digər ölkələrdə tələbələrimiz ola bilər. Yəni, xaricdə 70 min civarında tələbəmiz varsa, bizdə əcnəbi tələbələrin sayı 7-8 min nəfərdir. Bu həm iqtisadi, həm də beynəlmiləlləşmə baxımından universitetlərimizə ziyandır. Universitetlərimizin rəqabətqabiliyyətliyini yüksəltməliyik. Bu səbəbdən universitetlərdə belə bir mövzuda maarifləndirici dəyirmi masaların keçirilməsinə ehiyac var. Əslində belə müzakirələr davamlı olaraq və bütün universitetlərdə təşkil edilməlidir. Yaxşı haldır ki, Azərbaycan Respublikası "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" təhsil problemlərinə dair belə layihələrə mütəmadi olaraq qrant ayırır. Qeyd edək ki, "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyi sistematik olaraq agentliyin dəstəyi ilə təhsil müəssislərində belə aktual mövzularda tədbirlər təşkil edir. Sonuncu layihə çərçivəsində olan dəyirmi masalarda universitetlərin rəqabət qabiliyyəti nədir, universitetlərin rəqabət qabiliyyətliyi meyarları, universitetlərin rəqabət qabiliyyətliyi və rəqabət üstünlükləri, niyə universitetlərimiz rəqabət qabiliyyətli deyil və s. kimi məsələlər müzakirə edilmişdir. Layihə rəhbəri "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyinin təsisçisi, təhsil eksperti, dosent İlham Əhmədov olmuşdur.

Layihə çərçivəsində ölkənin bir neçə universitetində belə təbdbirlər oldu. Bu mövzuda tədbirlər ADA universitetində, SDU-da və ADPU-da təşkil edilmişdi. Tədbirlərdə ADA, ADPU, UNEC və digər universitetlərin əməkdaşları, təhsil ekspertləti, təhsil jurnalistləri, təhsil yönümlü QHT nümayəndələri iştirak etmişdilər. Layihə rəhbəri dos. İlham Əhmədovun "Universitetlərin rəqabət qabiliyyəti" mövzusunda olan təqdimatı tədbir iştirakçılarının böyük marağına səbəb olmuşdur. Tədbirlərin sonunda hər dəfə mövzu ətrafında maraqlı müzakirələr olurdu.

*Dos. İlham ƏHMƏDOV,*
*təhsil məsələləri üzrə ekspert*

## Mərkəzi Gömrük Hospitalının Laboratoriyası yüksək keyfiyyətli və etibarlı müayinə nəticələri ilə xidmətinizdədir





Mərkəzi Gömrük Hospitalının Laboratoriyasında nümunələrin qəbulu, qeydiyyatı və müayinələrin aparılması həftənin 7/24 fasiləsiz iş rejimində həyata keçirilir. Bundan əlavə nümunələrin ev şəraitində peşəkar səyyar tibbi xidmət mütəxəssisləri tərəfindən təhlükəsiz şəkildə götürülməsi və laboratoriyaya çatdırılması mümkündür.

Mərkəzi Gömrük Hospitalının Laboratoriyasının tədqiqat spektrinə müasir, tam avtomatlaşdırılmış analizatorlarda diaqnostikanın ümumi iş prinsipinə uyğun olaraq kliniki, biokimyəvi, koaqulopatoloji, hematoloji, bakterioloji, immunoseroloji və molekulyar-genetik müayinələr daxildir. Mərkəzi Gömrük Hospitalının laboratoriyası xidmətlərinin keyfiyyətini və etibarlılığını nümayiş etdirmək üçün ISO 15189-standartına akkreditasiya olunub. ISO 15189 standartı, ISO 17025 və ISO 9001 standartlarına əsaslanan beynəlxalq səviyyədə tanınmış sənəddir. Buraya həm keyfiyyət sisteminin elementləri, həm də kliniki laboratoriya üçün ümumi tələblər daxildir. Laboratoriyanın akkreditasiya olunması tibb sahəsində yüksək səviyyəli xidmətə, analiz nəticələrinin dəqiqliyinə, səhiyyə normativlərinin yerinə yetirilməsinə, sənədləşmə prosedurlarına nəzarətə, risklərin minimuma endirilməsinə, laboratoriya avadanlıqlarının, analiz üsullarının yüksək tələblərə cavab verməsinə və hər şeydən əvvəl pasiyentlərin məmnunluğuna zəmanət verir.

Sertifikatlaşdırılmış laboratoriyamız dünya bazarında nüfuzunu artırır və rəqabət mühitində üstünlük göstərir. Pasiyentlərə təklif etdiyimiz geniş profilli laborator xidmətlər idarə edilmənin səriştəli, səmərəli təşkil edildiyini təsdiqləyir. Məqsədimiz etibarlı tədqiqat nəticələrini təmin etməkdir. Sağlamlığınızı bizə etibar edin. Mərkəzi Gömrük Hospitalı 15 ildir ki, sağlamlığınızın keşiyindədir!

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## Azərbaycanın neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi açıqlanıb



Cari ilin yanvar-noyabr aylarında neft-qaz sektoruna 5 milyard 67,2 milyon manatlıq vəsait yönəldilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yanvar-noyabr aylarında ölkənin neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 9 faiz azalıb.

Qeyd edək ki, 2023-cü ilin müvafiq dövründə sözügedən göstərici 5 milyard 497,2 milyon manat səviyyəsində olub.

## Neft-qaz sektorunda 38 milyard manatlıq ÜDM istehsal olunub

Cari ilin yanvar-noyabr aylarında ümumi daxili məhsul (ÜDM) neft-qaz sektorunda əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,4 faiz artaraq, 37 milyard 967 milyon manat olub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz artıb.

# Kibertəhlükələr və kibermədəniyyətin yaranmasına olan ehtiyacın əhəmiyyəti

Son illərdə dünyada bir çox hadisələr baş vermişdir. Xəbərlərdə yer alan və diqqət çəkən bəzi mühüm kibertəhlükəsizlik insidentləri və onların fərdlərə və şirkətlərə təsirləri barədə qeydlərlə başlamaq yerinə düşərdi.




***1. MOVEit Transfer Hücumu (2023)***

MOVEit, məlumatların təhlükəsiz ötürülməsi üçün istifadə edilən bir platformadır. 2023-cü ilin may ayında bu sistemə ciddi bir hücum həyata keçirildi və nəticədə bir çox təşkilatların məlumatlarının, o cümlədən maliyyə və şəxsi məlumatların, sızdırıldığı bildirildi, müştərilərin şəxsi məlumatları, maliyyə məlumatları və digər həssas məlumatlar təhlükəyə düşdü. Bu kimi hadisələr identifikasiya oğurluğu, maliyyə fırıldaqları və şəxsi məlumatların pis niyyətli istifadəsinə səbəb ola bilər.

***2. Uber Hücumu (2022)***

Uber-in daxili sistemlərinə daxil olan hakerlər şirkətin işçilərinin məlumatlarını, daxili alətləri və müştəri məlumatlarını əldə etdilər. Bu insident Uber-in təhlükəsizlik protokollarının zəifliyini ortaya qoydu. Bu hücum müştəri məlumatlarının risk altında olduğunu göstərdi və istifadəçilərin etibarını sarsıtdı. İstifadəçilər onlayn platformalarda daha ehtiyatlı olmalıdır.

***3. Twitter Məlumat Sızması (2022)***

2022-ci ilin avqust ayında Twitter, 5.4 milyon istifadəçi hesabının məlumatlarının sızdırıldığını təsdiqlədi. Bu, bir haker forumunda məlumatların satıldığı vaxt aşkar edildi. Sızan məlumatlar arasında istifadəçi adları, e-poçt ünvanları, telefon nömrələri və digər şəxsi məlumatlar vardı. Bu sızmanın səbəbi Twitter-in zəifliklərinin istismar edilməsi idi. Hakerlər Twitter-in API sistemindən istifadə edərək, müəyyən istifadəçi hesablarının məlumatlarını ələ keçirmişdilər.

***4. T-Mobile Məlumat Sızması (2021)***

T-Mobile, müştəri məlumatlarının sızmasına səbəb olan bir hücum yaşadı. Bu insident müştərilərin şəxsi və maliyyə məlumatlarının geniş miqyasda təhlükəyə düşməsinə səbəb oldu. Müştərilər öz şəxsi məlumatlarının istifadəsi və qorunması ilə bağlı narahatlıq hiss etdilər. İdentifikasiya oğurluğu riski artdı, bu da maliyyə itkilərinə səbəb olma ehtimalını çoxaltdı.

***5. Colonial Pipeline Hücumu (2021)***

Colonial Pipeline ABŞ-ın ən böyük enerji tədarükçülərindən biridir. Bu şirkətə edilən ransomware hücumu yanacaq tədarükünün kəskin şəkildə azalmasına səbəb oldu. Bu hadisə insanların yanacaq tədarükü ilə bağlı narahatlıqlarını artırdı və bazarda qiymət artımına səbəb oldu. İnsanlar enerji infrastrukturunun kibertəhlükəsizlik risklərini daha ciddi qəbul etməyə başladılar. Hücum nəticəsində şirkət öz sistemlərini bağlamağa məcbur oldu, bu da ABŞ-nin Şərq sahilində yanacaq tədarükünün kəskin şəkildə azalmasına səbəb oldu. Hücum DarkSide adlanan bir ransomware qrupunun əməliyyatı olaraq həyata keçirildi. Hakerlər Colonial Pipeline-ın sistemlərinə daxil olaraq mühüm məlumatları ələ keçirdilər və şirkətdən məlumatların bərpası üçün fidyə tələb etdilər.

**6. Microsoft Exchange Zəiflikləri (2021)**

2021-ci ildə Microsoft Exchange Server-də kiberhücumlar zamanı ciddi zəifliklər aşkar edildi. Bu zəifliklər hakerlərin sistemə daxil olmasına və istifadəçi məlumatlarını ələ keçirməsinə imkan yaratdı. Aşkar edilən zəifliklər arasında CVE-2021-26855, CVE-2021-26857, CVE-2021-26858, və CVE-2021-27065 kodları ilə tanınan zəifliklər var idi. Hücumlar nəticəsində təşkilatların e-poçt və istifadəçi məlumatları, o cümlədən həssas məlumatlar sızdırıldı. Bu, identifikasiya oğurluğu və digər maliyyə fırıldaqlarına yol açdı. Müştərilər və istifadəçilər Microsoft Exchange-in təhlükəsizliyinə olan etibarlarını itirməyə başladılar. Bu, təşkilatların müştəri məlumatlarının qorunmasına dair yeni tələblərə cavab verməsini tələb etdi. Bu insidentlər kibertəhlükəsizlik mövzusunu daha aktual edir və fərdləri onlayn mühitdə daha ehtiyatlı olmağa təşviq edir. ***Bu kimi hadisələr baş verdikdə, qeyd edilən aşağıdakı hallara səbəb olur:***

**Məlumatların təhlükəsizliyi**

İstifadəçi məlumatlarının sızması identifikasiya oğurluğu riskini artırır, bu da şəxsi və maliyyə məlumatlarının mənimsənilməsi ilə nəticələnə bilər. Sızdırılan məlumatlar maliyyə fırıldaqlarına yol açır, istifadəçilərin bank hesablarına və maliyyə xidmətlərinə ziyan vurur.

**Etibarın azalması**

Müştəri və istifadəçilər xidmətlərin təhlükəsizliyinə olan etibarlarını itirirlər. Bu, təşkilatların müştəri bazasına mənfi təsir göstərir. Şirkətlər məlumat sızması nəticəsində reputasiyalarını itirir və bu zaman bazar dəyəri azala bilər.

**Təşkilatların daxili prosesləri və xərclər**

Təşkilatlar kibertəhlükəsizlik tədbirlərini gücləndirmək üçün daxili prosedurlarını yenidən nəzərdən keçirməyə məcbur olurlar. İnsidentlər, təşkilatlar üçün məlumatların bərpası, hüquqi məsələlər və təhlükəsizlik sistemlərinin yenilənməsi ilə bağlı əlavə xərclər yaradır.

*(davamı gələn sayımızda)*



*Bəhruz Əliyev,*
*İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı,*
*Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti*

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**